LDU beynəlxalq reytinqdə uğur qazanıb

Lənkəran Dövlət Universiteti (LDU) beynəlxalq HE Higher Education Ranking – 2026 reytinqində uğurlu nəticə əldə edib. Sözügedən reytinqdə ilk dəfə iştirak edən LDU 2026-cı il üzrə iştirak edən 55 ölkənin 507 universiteti arasında 199-cu yerdə qərarlaşıb.

Reytinq metodologiyası universitetlərin fəaliyyətini 25 meyar və 138 göstərici əsasında qiymətləndirərək ali təhsil müəssisələrinin elmi-tədqiqat, tədris, idarəetmə, sosial fəaliyyət, maliyyə və resursların idarə olunması, innovasiya və davamlı inkişafı kompleks şəkildə təhlil edir. Reytinq hesabatında nəzərdə tutulan maksimum 10000 baldan universitetimiz 6381 bal toplamışdır.

LDU-nun bu nəticəsi universitetdə təhsilin keyfiyyətinin artırılması, beynəlxalq nüfuzun genişləndirilməsi və elmi-tədqiqat fəaliyyətinin inkişafı istiqamətində görülən işlərin nəticəsi kimi qiymətləndirilir.